BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 Humanitar elmlər seriyası 2005

# MİLLİ PUBLİSİSTİKANIN İNKİŞAF MEYLLƏRİ

B.Q.MƏMMƏDOV

Tədqiqatçılar milli publisistikanın tarixini qədimlərə aparıb çıxartsalar da, özünəməxsus poetikası, bədii-estetik prinsipləri olan yaradıcılıq növü kimi onun əsaslı inkişafı XIX əsrdən başlanıbdır. Azərbaycanda kitab çapının güclənməsi, mətbuatın artması və onun ictimai rəyin formalaşmasına təsiri publisistikanın sürəkli inkişafını qaçılmazlaşdırdı. Dövrün ziyalıları, xüsusən də yaradıcı şəxsiyyətləri publisistikaya xüsusi önəm verməyə başladılar. Təbii ki, bunun da obyektiv və subyektiv səbəbləri var idi. Çar Rusiyasının Azərbaycanı işğalı ölkə əhaləsinin məcburi şəkildə razılaşmaq zorunda qaldığı yeni reallıqlar gətirmişdi. Etnik-milli, dini ayrıseçkiliyə məruz qalan yerli əhalini müstəmləkəçilər sosial-iqtisadi, ictimai-siyasi, elmi-mədəni baxımdan da acınacaqlı vəziyyətdə saxlayırdılar. İnsanların vərdiş, bu və ya digər dərəcədə həll elədiyi, yaxud da nisbətən asanlaşdıraraq yaşadığı konfliktləri başqaları əvəz eləmişdi. Yeni konfliktlərlə qarşılaşan əhali çıxılmaz vəziyyətə düşmüşdü: onlar belə konfliktlə rastlaşmadıqlarından buna adaptasiya olmağa və ya ona qarşı mübarizə aparmağa hazır deyildilər. Əhalini bu vəziyyətdən çıxarmaq üçün ziyalıların, yazıçı, şair və elm adamlarının sözünə əlahiddə ehtiyac vardı.

Çar Rusiyasının Azərbaycanı işğalı ölkəni adi (məsələn, Gürcüstan, Ermənistan və s. kimi) müstəmləkəyə çevirmədi. Bununla Azərbaycan tarixində və taleyində yeni bir mərhələ başladı. Əsrlər boyu özünəməxsus təfəkkür, həyat tərzi, psixologiyası, adət-ənənəsi, davranış norması, etnik və dini düşüncəsi formalaşmış ölkə və xalq bu sadalananlar baxımından özündən tamamilə fərqlənən başqa xalqla təmasda, onun idarəçiliyi altında, onun qanunları, iradəsi ilə yaşamaq zorunda qaldı; ilk gündən işğalçılarla yerli əhali arasında barışmaz, həlli mümkün olmayan ziddiyyət, konflikt yarandı.

Milli söz sənəti yeni yaranan və getdikcə kəskinləşən, dərinləşən və dramatikləşən konfliktə operativ reaksiya verdi. Bədii ədəbiyyatda, o cümlədən bədii publisistikada iki istiqamət ənənə halını aldı: birincisi, Rusiyanın Azərbaycanı işğalının özü ilə gətirdiyi müsbət tərəflər (Avropa ilə təmas, rus elmi, ədəbiyyatı, mədəniyyəti, tədris sistemi ilə tanışlıq və s.) tərənnüm və təbliğ olundu. (məsələn, maarifçilərin bir çoxunun yaradıcılığını və fəaliyyətini buna nümunə göstərmək mümükündür və s.) Təsadüfi deyil ki, filosof Ə.Əhmədov «Azərbaycan maarifçiliyi ideoloji sistemə çevril-

mişdi» (1,18) deyirdi; tədqiqatçı N.Vəlixanov isə bu dövrün publisistikasını maarifçi publisistika kimi təhlil etmişdir (2); ikincisi, Rusiyanın işğalı ilə başlayan yeni dövr müstəmləkəçiliyi, sosial-iqtisadi, ictimai-siyasi və ən başlıcası etnik-milli baxımdan dözülməz istismarı, ayrı-seçkiliyi, assimilasiya siyasəti tənqid və ifşa edildi.

XIX əsrdə və XX əsrin əvvəllərində birinci istiqamətdə (təbii ki, söhbət yalnız bədii ədəbiyyatdan gedir) adları çəkilənlər, bu istiqamətə uyğun mövzularda əsərlər yazanlar bununla da yarınmaq məqsədi güdmür, qulluq göstərmirdilər. Onlar əhalini, ziyalıları qaçılmaz yeni reallıqların mövcud müsbət hallarından xalq, millət, ölkə naminə yararlanmağa çağırırdılar. İkinci istiqamət isə tədricən bədii ədəbiyyatda, xüsusən də bədii publisistikada prioritet halını almağa başlamışdı. Fikrimizi əsaslandırmaq isə M.F.Axundovun komediyalarında rus məmurlarına, yerli əhalinin mentaliteti nəzərə alınmadan öz idarəçilik sistemini tətbiq etməyə çalışan dövlət rəhbərlərinə ironik münasibəti (3) və C.Məmmədquluzadənin publisistikasında eyni hallara (və başqa hallara) qarşı münasibətdə ironiyanın artıq sərt, kəskin satiraya keçməsini xatırlamaq kifayətdir. (4,98) Amma görkəmli ədib bütün hallarda həyati amalına çevrilmiş azərbaycançılıq idealına sadiq qalaraq bədii və publisistik əsərlərində bunu gerçəkləşdirməyə cəhd göstərirdi (5).

Əlbəttə, bu o demək deyildir ki, XIX əsrdə (eləcə də sonrakı XX əsrdə) reallıqdakı mövcud konflikt bununla məhdudlaşırdı. Bizim prioritet kimi mənalandırdığımız bu konfliktlərdən başqa, heç şübhəsiz, reallıqda zümrələr, müxtəlif sosial qruplar, insanlararası və s. konfliktlər də az deyildi. Hər bir normal cəmiyyətdə sadalanan konfliktlərə rast gəlmək mümkündür və bütün bu konfliktlər cəmiyyətin inkişafının ümumi mənzərəsinin səciyyəvi cəhətləridir. Amma Azərbaycan işğal altında olduğundan, müstəmləkə vəziyyətində yaşadığından, tərkibi, siyasi, sosial, elmi-mədəni inkişafı daimi və sistematik şəkildə müdaxiləyə, təzyiqə məruz qaldığından XIX və XX əsrdə mövcud olan milli cəmiyyəti normal saymaq qeyri-mümkündür. Buna görə də normal cəmiyyətlərə xas ziddiyyətlərdən, konfliktlərdən xali olmayan Azərbaycanın qarşısında ilk növbədə anormal cəmiyyəti şərtləndirən, onu qoruyub saxlayan konfliktlərin həlli, aradan qaldırılması uğrunda mübarizə dururdu. Amma elə XIX əsrdən başlayaraq bu sahədə də iki məqama xüsusi diqqət yetirilirdi; brinci məqamın tərəfdarları anormal cəmiyyəti ideal cəmiyyət modeli əsasında tədricən reallaşan cəmiyyətin başlanğıcı hesab edərək onu təbliğ və tərənnüm edirdilər; ikinci məqamın tərəfdarları isə yeganə sivil xilas variantlarının məhz müstəqil və normal cəmiyyət yaradılmasında görərək bunun uğrunda mübarizəni həyat amalı seçirdilər.

XX əsrdə bolşevik Rusiyası silah gücünə və istismardan, milli əsarətdən cana yığılmış yerli əhaliyə verdiyi şirin vədlərin hesabına Azərbaycanı yenidən işğal elədi. Əksəriyyətin içində çar Rusiyasının bir əsr ərzində məhv eləməyə çalışdığı etnik-milli özünə-

məxsusluqların bolşeviklər tərəfindən «bəlkə də qaytardılar». (C.Məmmədquluzadə) ümidi oyanmışdı. Amma işğalın ilk günlərindən aparılan siyasi xətti ciddi müşahidə edən ziyalıların ümidi yaranmamışdan məhv oldu. Bolşeviklər, o cümlədən onların yerlərdəki vuran əlləri ümidini itirən ziyalılara, deməli, normal cəmiyyət naminə fəaliyyət göstərənlərə qarşı total hücuma başladılar. «Hələ Cümhuriyyət dövründə Tiflisdə podporuçik rütbəsində hərbi attaşenin yavəri işləmiş Əsgər Əsgərov Gəngərlinski «Azərbaycan faciəsi» memuarında həmin hadisələrin çoxunun bilavasitə iştirakçısı kimi yazırdı: «1920-ci il aprelin 28-dən 1921-ci ilin avqustuna qədər Azərbaycan xalqının 48 min nəfər ən görkəmli və şərəfli oğulları «qırmızı terrorun» qurbanı oldular» (6,152-153).

Bolşevik Rusiyası başladığı işi 1937-ci ildə apogeyinə çatdırdı, saysız-hesabsız qurbanlarla kifayətlənmədi, ədəbiyyata, mədəniyyətə, incəsənətə, ziyalıların fəaliyyətinə elə bir nəzarət sistemi yaratdı ki, seçimə yer qalmadı. XIX əsrdən formalaşmağa başlamış birinci istiqamət bir sıra sənətkarlar üçün varlığını qoruyub saxlamağın yeganə yoluna çevrildi. Amansızlıq, qəddarlıq, 37-ci ilin müsibəti ikinci yolun müvəqqəti, ən azı zahirən unudulmasına gətirib çıxartdı. İki xarakterik cəhətə diqqət yetirmək məqsədəuyğun olardı: birincisi, birinci istiqamət ruhunu, xarakterini dəyişdi; artıq müəyyən mənada yarınmaq ön plana keçdi, sağ qalmaq, dolanmaq... məramı ilə bu istiqaməti şüurlu, məqsədli şəkildə seçənlərin sayı müəyyən mənada artdı; ikincisi, ikinci istiqamətin müvəqqəti unudulması onun tamam gündəmdən çıxarılması demək deyildi, çar Rusiyası dövründə belə amansız təqibə, nəzarətə, təzyiqə məruz qalmayan ikinci istiqamətin tərəfdarları yeni yollar axtarmaq məcburiyyətində qaldılar. Onlar ikinci istiqamətə uyğun söz demək üçün gah birinci istiqamətdə əsər yazmaqla sığortalanmağa çalışırdılar, gah da niyyətlərini senzorun çox vaxt qadağa qoya bilmədiyi priyomlardan, obrazlardan, bədii-estetik prinsiplərdən istifadə etməklə gerçəkləşdirməyə cəhdlər göstərirdilər. Bu belə də olmalı idi. Çünki «incəsənət tarixində hər bir epoxa eyni zamanda incəsənətin yeni imkanlarının kəşfi ilə səciyyələnir. Zamanın hadisələri, əsrin yeni məzmunu bədii yaradıcılığın inkişafına səbəb olur, yeni formaların, üslub və vasitələrin axtarılması, tapılması və qəbul olunması prosesini gücləndirir» (7,8). Hər iki istiqamət ədəbimədəni həyatda uzunmüddətli ənənəyə çevrildi və müstəqillik illəri ərəfəsinə kimi davam elədi.

İstiqamətlərin paralel mövcudluğu onların hər ikisinin eyni təsir miqyasına və gücünə malik olduğunun göstəricisi deyildi. Paradoksal vəziyyət yaranmışdı. Birinci istiqamətin süniliyi, yalan üzərində qurulduğu, təbliği xarakter daşıdığı və qeyri-inandırıcılığı 1930-cu illərdən başlayaraq tədricən açıq-aşkar görünməyə başladı. Amma bununla belə, təbliğat bu və ya digər dərəcədə öz işini görürdü. Xalqlar öz tarixlərini təhriflə öyrənirdilər, faktlar saxtalaşdırılırdı (Müsavatın formalaşdırılmış xalq düşməni imicini xatırlayaq), doğma dilin işlənmə sferası məhdudlaşdırılırdı və s.

Bu yalanlara istər-istəməz inanan insanlar nəsli yetişdirilirdi. Birinci istiqamətin tam qələbə çala bilməməsinin bir əsas səbəbi də ikinci istiqamətin mövcudluğunda və bu istiqamətin fəaliyyətinin məhsulu olan əsərlərdəki həqiqətlərə inananların sayının artmasında idi.

XX əsrin ikinci yarısından başlayaraq ikinci istiqamətin təsir gücü daha da artmağa başladı. Peşəkar publisistlər və ya müxtəlif mütəxəssislər öz sahələri ilə bağlı publisistik yazılarında ictimai həyatdakı etiraf edilməyən, amma mövcud olan konfliktləri, problemləri qaldıraraq işıqlandırırdılar (məsələn, müttəfiq respublikaları bir-birindən iqtisadi cəhətdən asılı vəziyyətə salmaq və asılı vəziyyətdə saxlamaq üçün iqtisadiyyatın–sənayenin qeyri-rentabelli bölüşdürülərək yerləşdirilməsi, hərbi sənaye, kosmik tədqiqlər və s. sahələrdə milli, dini mənsubiyyətin nəzərə alınması, hərbi qulluğa çağrılma vaxtı gənclərin adaptasiya keçmədikləri ərazilərdə yerləşdirilməsi və s.). Dövrün bədii publisistikasında lokal, sahələr üzrə konfliktlərə maraq göstərilirdi, amma əsas diqqət milli, dini özünəməxsusluqların qorunub saxlanılmasına yönəldilirdi.

Etnik-milli mövcudluqla bağlı konflikt və problemlərə XX əsrin II yarısından başlayaraq daha əsaslı şəkildə diqqət yetirilməsi kommunist rejiminin strateji geosiyasi maraqlarının və siyasətinin gözlənilən acı nəticələrinin öncədən bu və ya digər dərəcədə görünməsi ilə sıx bağlı idi. Sovet insanı anlayışını ortaya atan kommunist partiyası ideoloqları ruslaşdırmanın «sivil» modelini əsas götürmüşdülər. Əslində sovet insanı dedikdə rus insanı nəzərdə tutulduğu heç kəsə sirr deyildi. Bu modelə uyğun təbliğat, təşviqat konsepsiyası hazırlanmışdı. Konsepsiyada SSRİ-nin tərkibindəki xalqların, millətlərin öz tarixlərinə biganəlik, kommunist ideologiyası baxımdan və dəyərləri ilə yazılmış tarixi bilmək, etnik-milli yaddaşda instinktiv və stixiyalı yaşayan adət-ənənələri, həyat tərzini, davranış normalarını unutmaq, doğma dilin müasir şəraitdə mürəkkəb texniki və fəlsəfi məsələləri ifadə etməyə qadir olmadığına inam, bir sözlə etnik-milli özünəməxsusluqlarla bağlı aşağılıq kompleksi formalaşdırmaq prioritet istiqamətlər idi. Təfsilatına varmadan indiki halında yalnız onu demək olar ki, əsas, ana konflikt etnik-milli mövcudluğun və varlığın qorunub saxlanılması uğrunda mübarizəni əhatə edirdi. Sadalanan digər bütün sahələrdəki konfliktlər birbaşa və ya dolayısı ilə bu konfliktə bağlanırdı.

Bədii ədəbiyyatda olduğu kimi, publisistikada da konfliktlə bağlı iki aspektə xüsusi diqqət yetirilirdi: birincisi, etnik-milli özünəməxsusluqlar təbliğ və tərənnüm olunurdu. Bununla da nəzərdə tutulmuş geostrateji məqsədi aşağılıq kompleksi formalaşdırmaq olan cəhdin qarşısı alınırdı və ya ən azı müəyyən mənada zərərsizləşdirilirdi; ikincisi, ayrı-ayrı ideoloji təxribatlara bu və ya digər dərəcədə elmi, bədii, bədii-publisistik cavablar verilirdi. Bütün hallarda bu aspektlər konfliktin tərəflərdən birinin xeyrinə, həllinə (xüsusən də kommunist ideoloqlarının) maneçilik törədir, konfliktin dondurulmasına imkan yaradırdı. Konfliktin dondurul-

ması isə əslində etnik-milli özünəməxsusluq uğrunda mübarizədə etnik-milli özünəməxsusluqların hədəfə götürülmüş tərəflərinin, sahələrinin saxlanılması demək idi.

Bu mübarizədə milli ədəbiyyatla yanaşı bədii publisistika mühüm rol oynayırdı. Ayrı-ayrı kitablardakı publisistik yazılar, publisistik kitablarla bərabər, bədii publisistikanın öz missiyasını layaqətlə yerinə yetirməsi üçün səhifələrində onlara yer verən jurnalların - «Azərbaycan», «Ulduz», «Qobustan» jurnallarının xidmətləri xüsusi qeyd olunmalıdır. Bununla belə, bu jurnallarda bolşevik imperiyasına xidmət məqsədi ilə yazılmış əsərlər az deyildi (bu barədə daha ətraflı bax: 8, 3-4).

R.Rza, İ.Şıxlı, B.Vahabzadə, M.Araz, İ.Muğanna, Anar, Ə.Əylisli, Elçin, S.Təbrizli, Hidayət, S.Rüstəmxanlı, T.Abdin və b. publisistikası bu illərdə daxili, görünməyən konfliktin ifadəsində, xalqda milli mənlik şüurunun gücləndirilməsində, azad, müstəqil yaşamaq haqqının unudulmamasında, sovet təbliğatının təsir gücünün zəifləidilməsində mühüm rol oynadı.

B.Vahabzadə «Mən», yoxsa «biz»ə məqaləsində M.Cəlilin «ata», mən kiməm və mənim qiymətim nədədir? sualına belə cavab verir: «Mən böyük tarixi olan qədirbilən, gözəl bir xalqın oğluyam» (9, 215). Bu fikirləri onun, o cümlədən ikinci istiqamətdə yazıb-yaradan publisistlərin publisistik əsərlərinin epiqrafı saymaq mümkündür. Onu da xüsusi vurğulamaq lazımdır ki, XX əsrin II yarısı Azərbaycan bədii publisistikasının sağlam, milli mənafelərə xidmət edən qanadı iki məqsəd güdürdü: bir tərəfdən mənəviyyat məsələlərini qaldırmaqla milli şüuru gücləndirmək və etnik-milli özünəməxsusluqları milli varlığın əsası kimi qorumaq, digər tərəfdən də əhalidə siyasi fəallıq və yetkinlik yaratmaq, məqsədli şəkildə unutdurulmağa çalışılan məsələlərlə – müstəqil, azad yaşamaq iqtidarında olmadığımızın təbliği ilə barışmamaq, tarixi haqqımız olan suverenliyimiz haqqında, bütöv Azərbaycan haqqında düşünmək vərdişi yaratmaq. Bütün bunlar isə bədii publisistikada çılpaq şüarlarla, tribuna təbliği ilə deyil, ürək yanğısı və böyük sənətkarlıq məharəti ilə ifadəsini tapırdı. Bütün bunları nəzərə almaqla demək olar ki, milli azadlığın və müstəqilliyin qazanılmasında XX əsrin II yarısı Azərbaycan publisistikasının özünəməxsus xidməti və əhəmiyyəti olmuşdur.

## ƏDƏBİYYAT

1. Ахмедов А.М. Философия Азербайджанского просвещения. Б., 1983.
2.Vəlixanov N. Publisistikada maarifçilik ideyaları/ XX əsr Azərbaycan ədəbiyyatı məsələləri. B.,1979.
3. Axundov M.F. Əsərləri: 3 cilddə, I c.,B., 1958.
4. Məmmədquluzadə C. Əsərləri: 3 cilddə, II c., B., 1967.
5. Məmmədov A. C.Məmmədquluzadə yaradıcılığında azərbaycançılıq. B., 2003.
6. Rüstəmli A. Susmaz duyğuların səltənətində. B., 2002.
7. Salmanov Ş. Azərbaycan sovet şerinin ənənə və novatorluq problemi, B., 1980.

8. Nəbiyev B. 80 il xalq mənəviyyatının xidmətində/ «Azərbaycan - 80». B., 2004.
9. Vahabzadə B. Sənətкar və zaman. B., 1976.

## ТЕНДЕНЦИИ РАЗВИТИЯ НАЦИОНАЛЬНОЙ ПУБЛИЦИСТИКИ

**Б.Г.МАМЕДОВ**

## АННОТАЦИЯ

В статье исследуется тенденция развития национальной публицистики, усиление книжной печати, увеличение прессы и его влияние на формирования общественного мнения.